**Aliyeva G.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.8-12**
**UDC: 342.7**

## Constitutional legal basis of cultural rights

**Abstract:** The article highlights that everyone has the right to participate in cultural life, to use cultural institutions and cultural values. Everyone is entitled to treat historical, cultural heritage with respect, to take care and protect monuments of history and culture.

**Keywords:** Azerbaijan; law; article; culture; constitution.

### References

1. Constitution of the Republic of Azerbaijan // adopted on November 12, 1995 (amendments and additions dated August 24, 2002, March 18, 2009 and September 26, 2016). Available at: https: //is.gd/BpivDU (in Azerbaijani).
2. Hajiyev Z.C. Logic: A textbook. Baku: Education NPM Publ., 2011, 240 p. (in Azerbaijani).
3. Law of the Republic of Azerbaijan "On Culture" // adopted on December 21, 2012 (amendments and additions until February 17, 2023). Available at: https://e-ganun.az/framework/25303 (in Azerbaijani).
4. Rustamov Y.I. Fundamentals of philosophy (lecture course). Baku: Nurlar Publ., 2007, 504 p. (in Azerbaijani).
5. Suleymanli S.S. Fundamentals of civil law. Baku: Huquq Yayin Evi Publ., 2019, 500 p. (in Azerbaijani).
6. Getmanova A.D. Logics. - Moscow: Novaya shkola Publ., 2000, 164 p. (in Russian).
7. Zinkovsky S.B. Law as a manifestation of culture: PhD in Law Abstract of Diss. Moscow, 2006. 24 p. (in Russian).
8. Pavlov B.B. The concept of law in Russian culture: PhD in Law Abstract of Diss. Novgorod, 2006. 24 p. (in Russian).

**Əliyeva G.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.8-12**
**UOT: 342.7**

## Mədəniyyət hüququnun konstitusion hüquqi əsasları

♦ **Aliyeva Gunay Sahhat** - legal researcher of the "Legal Research" department of the Institute of the Law and Human Rights Public Legal Entity under the Center for Legal Expertise and Legislative Initiatives (Azerbaijan). E-mail: gunay-aliyeva-2019@mail.ru

♦ **Əliyeva Günay Səhhət qızı** - Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri mərkəzi tabeliyində Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin "Hüquqi tədqiqat" şöbəsinin hüquq tədqiqatçısı (Azərbaycan). E-mail: gunay-aliyeva-2019@mail.ru

**Xülasə:** Məqalədə qeyd olunur ki, hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

**Açar sözlər:** Azərbaycan; hüquq; maddə; mədəniyyət; konstitusiya.

İnsanın dərketmə prosesində istifadə etdiyi təfəkkür formalarından biri anlayışdır. Əşya və hadisələrin mühüm əlamətlərini əks etdirən və fiksə edən təfəkkür forması anlayış adlandırılır. Anlayış hadisənin mahiyyətini əks etdirir. Məhz anlayışlar vasitəsilə insan dünyadakı hadisə və proseslərin daxili vəhdətini və məzmununu aşkar edir, gerçəklik haqqında yeni biliklərə yiyələnir. Anlayış obyektin nə olduğu və onun mahiyyətinin nə kəsb etdiyi suallarına cavab verməlidir. Elmi ədəbiyyatda anlayışa bu cür tərif verilir: "Anlayış predmetlərin ən mühüm və fərqləndirici əlamətlərini əks etdirən təfəkkür formasıdır" [2, s. 20]. Başqa sözlə, anlayış dedikdə, predmet və hadisələrin, yəni təbiətdə baş verən bütün dəyişikliklərin mühüm əlamətlərini əks etdirən təfəkkür forması başa düşülür.

A.D.Qetmanovanın fikrincə, "anlayış - bu, hər hansı bir predmetin və ya eyni cinsli predmetlərin əhəmiyyətli və fərqli əlamətlərini özündə əks etdirən təfəkkür formasıdır" [6, s. 26].

Anlayış düşüncə forması (növü) və ya düşüncə törəməsi kimi bəzi sinif obyektlərin ümumiləşdirilməsi və həmin sinif obyektləri üçün ümumi olan müəyyən məcmu üzrə və onlar üçün fərqli əlamətlərin məcmusunda həmin sinfin özünün fikrən ayrılmasının nəticəsidir.

Hər bir anlayış nəzəri dərk etmə aktıdır, yəni o göstərir ki, əks etdirilən hadisə gerçəklikdə özünü necə realizə edir, mahiyyəti necə açıqlanır, digər obyektlərdən necə seçilir.

S.S.Süleymanlı alman hüquqşünası Herman Kantoroviçə istinad edərək qeyd edir ki, "anlayışlar (terminlər) istənilən elm sahəsində olduqca həlledici rola malikdirlər. Çünki istənilən elm sahəsində ilk bünövrə daşları, qaçılmaz bir şəkildə məhz anlayışlar vasitəsilə qurulur. Bu nöqteyi-nəzərdən də anlayışların tərifi həmişə vacib əhəmiyyət kəsb edir. Hər hansı bir anlayışın tərifini vermək, ad qoyulmasında olduğu kimi müəyyən bir şeyi təyin edərək onu digərlərlərindən fərqləndirmək vasitəsi olmaqla yanaşı, həm də həmin şeyin daha ətraflı şəkildə izahını ehtiva edir. Başqa sözlə, bir anlayışın tərifi, bir sözün istifadə olunma sahəsi haqqında məlumat verməklə yanaşı, həm də tərifi verilən anlayışın ifadə etdiyi məsələ və məna haqqında da zəruri bilik və məlumatları ehtiva etməlidir" [5, s. 27].

Elmi anlayışlar – bu, ətraf aləmin hadisələri və proseslərində qanunuyğunluq və zərurilik haqqında dolğun təsəvvürlərdir. Ona görə də anlayışların, o cümlədən "mədəniyyət" anlayışının rolunu qiymətləndirərkən onlarda gerçəkliyin dərk edilməsinin nə qədər doğru, adekvat və obyektiv əks olunması məsələsi ön plana çıxır. Çünki mədəniyyət mənəvi həyatda özünəməxsus xüsusi çəkisi və yeri olan fenomenal hadisədir. Mədəniyyət sosial həyatın təməlli ünsürüdür. Hüquq sahəsində mədəniyyət hadisəsi ilk növbədə dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi təzahür edir. Ona görə də mədəniyyət hər bir ölkədə, o cümlədən Azərbaycan Respublikasında öz-özünə deyil, dövlətin qanunvericilik aktlarına uyğun olaraq inkişaf edir və təkmilləşir. Başqa sözlə, ölkəmizdə mədəniyyət sahəsi Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları əsasında idarə olunur.

Y.İ.Rüstəmovun fikrincə, mədəniyyət unikal və nisbətən bütöv fenomen kimi indiki dövrdə böyük müxtəlifliyə malikdir. Ona görə də başqa elə bir söz tapmaq çətindir ki, onun mədəniyyət qədər çoxlu məna çalarları olsun [4, s. 484].

Sosiologiyada mədəniyyətə daha geniş planda yanaşılır. Belə ki, sosiologiyada "mədəniyyət" anlayışı yalnız yaradıcılıq fəaliyyətinin yuxarıda xatırladılan növlərini deyil, daha geniş sahəni əhatə edir. Buraya insanın geyim manerası, nikah mərasimi və ailə-məişət həyatı, əmək fəaliyyəti, dini mərasimlərin icrası, asudə vaxtın keçirilməsi və s. daxil olur. Buraya həmçinin insanların qurub-yaratdıqları və onlar üçün dəyər, sərvət hesab olunan predmetlər daxildir.

Elmi izahlarda mədəniyyət insan fəallığının genişmiqyaslı və çoxşaxəli sistemi kimi nəzərdən keçirilir.

Mədəniyyət sferasında fəaliyyət isə, ümumdövlət səviyyəsində mədəni sərvətlərin yaradılması, yayılması, qorunması, bərpası, mənimsənilməsi və təşviqi, həmçinin mədəniyyət xidmətlərinin göstərilməsi və təşkili sahəsində fəaliyyət deməkdir.

Mədəniyyət sahəsində xüsusi dövlət siyasəti həyata keçirilir. Azərbaycan Respublikasında dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edən, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyən, 57 maddədən ibarət olan "Mədəniyyət haqqında" 21 dekabr 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsində bildirilir: "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir". Adıçəkilən Qanunun 3.2-ci maddəsinə əsasən, "mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1) dövlət mədəniyyət sisteminin idarə olunması və bu sahədə fəaliyyətin əlaqələndirilməsi;

2) mədəniyyət sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərin, dövlət, özəl və bələdiyyə mədəniyyət təsisatlarının hüquqlarının qorunması və yaradıcılıq fəaliyyətinin həyata keçirilməsinin təmin edilməsi.

Hüquq və mədəniyyət anlayışları bir-biri ilə qarşılıqlı surətdə əlaqəlidir. Hüquqi mənada mədəniyyət dedikdə, ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusu başa düşülür ("Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsi) [3].

B.B.Pavlov haqlı olaraq göstərir ki, hüquq və mədəniyyət arasındakı əlaqə, ilk növbədə, onların müəyyənləşdirilməsi və xüsusiyyətlərinin ümumi amilləri vasitəsilə formalaşır. Mədəniyyət və hüquq ümumi xüsusiyyətlərə, mənəvi mənalarla dolu (aksioloji) zəngin təbii xüsusiyyətlərə malikdir ki, bu da idealın mövcudluğunu, həmçinin, əxlaqi və mütləq dəyərlərə istiqamətlənməni nəzərdə tutur. Bu halda hüquq təkcə bilik-əql, icbari anlayış deyil, həm də yeni keyfiyyət, müsabiqə, yaradıcılıq və sənət, təkmilləşmə və inkişaf deməkdir [8, s. 9].

Hüquq elminin müasir inkişaf səviyyəsi və onun qarşısında duran problemlərin xarakteri hüquqi tədqiqatlarda mədəni yanaşmadan fəal istifadəni tələb edir. Bu, həm hüququn mədəni aspektlərinin öyrənilməsi üçün elmdə formalaşmış metodologiyanın qeyri-məhsuldarlığı, həm də bu problemə yeni yanaşmaların formalaşmasının natamamlığı ilə izah olunur. Hüququ müxtəlif sosial amillərin fəaliyyətinin nəticəsi hesab edən kulturoloji yanaşma hüququn müxtəlif cəmiyyətlərdə yaranma xüsusiyyətlərini, onun dəyər bazasının formalaşmasını, institusional və prosessual komponentlərini izləməyə imkan verir. Hüquq elmində sosioloji ənənələrin məntiqi davamı olmaqla bərabər sistemli və tarixi təhlil metodologiyasını özündə birləşdirən kulturoloji yanaşma müasir hüquqi inkişafın bir sıra mühüm problemlərinə cavab verməyə imkan verir. Bu yanaşma kontekstində hüquq hüquq mədəniyyətinin tərkib hissəsi kimi, o da öz növbəsində cəmiyyət

mədəniyyətinin elementi kimi meydana çıxır. S.B.Zinkovskinin sözləri ilə ifadə etsək, kulturoloji paradiqma kontekstində hüquq cəmiyyətin mədəniyyət sistemində yarımüstəqil və spesifik altsistem olaraq üstün dünyagörüşünə uyğun gələn və cəmiyyət tərəfindən tipik və məcburi olaraq qəbul edilən ideal münasibətlər modeli kimi çıxış edir [7, s. 8].

Hüquq sahəsində mədəniyyət hadisəsi dövlət siyasətinin prioritetlərindən biri hesab olunur. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun "Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi" başlıqlı 2-ci maddəsinə görə, "mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 20.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının qanunlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir" [3].

Layihəsi ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsində (referendumda) qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının "Mədəniyyət hüququ" sərlövhəli 40-cı maddəsinə əsasən**,** hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır [1].

Mədəni həyatda iştirak etmək insanın iqtisadi, sosial və mədəni hüquqlarına aiddir. Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinin mövqeyinə görə, geniş konsepsiya olan mədəniyyət insan həyatının bütün təzahürlərini əhatə edir.

Mədəni hüquqlar insanın mənəvi inkişafını təmin edir. Adıçəkilən hüquqlara təhsil hüququ, mədəni dəyərlərə əlçatanlıq hüququ, cəmiyyətin həyatında sərbəst iştirak imkanı daxildir.

Mədəniyyət insan rifahına, onun inkişafına xidmət edir. Rifahı ən iniversal dəyər hesab edən Platon göstərirdi ki, rifah ideyası olmadan bütün insanın malik olduğu bütün biliklər əhəmiyyətsizdir.

Qeyd etməyi zəruri hesab edirik ki, "mədəni həyat" ifadəsində mədəniyyət keçmişi, bu günü və gələcəyi ilə tarixi, dinamik və inkişaf edən həyat prosesi kimi başa düşülür. Mədəniyyət, digər meyarlarla yanaşı, həyat tərzini, dili, şifahi və yazılı ədəbiyyatı, musiqi və nəğməni, qeyri-linqvistik ünsiyyəti, dinlər və ya inanclar sistemini, ayin və mərasimləri, idman və oyunları, istehsal üsullarını və ya texnologiyasını, təbii və süni ətraf mühiti, ənənəvi mətbəx, geyim və yaşayış sahələrini də əhatə edir. Eyni zamanda ayrı-ayrı fərdlərin, ayrı-ayrı fərdlərdən ibarət qrupların və icmaların öz insani keyfiyyətlərini və onların mövcudluğuna verdiyi mənanı ifadə edən və onların həyatına təsir imkanlarına malik xarici qüvvələrə qarşı reaksiyalarını əks etdirən, dünya haqqında təsəvvürlərini formalaşdıran sənət, adət və ənənələri də özündə ehtiva edir.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il, 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr): [Elektron resurs]. URL: https://is.gd/BpivDU
2. Hacıyev Z.C. Məntiq: Dərs vəsaiti. - Bakı: Təhsil NPM, 2011. - 240 s.
3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu // 21 dekabr 2012-ci ildə qəbul edilmişdir (17 fevral 2023-cü il tarixədək olan dəyişiklik və əlavələr). [Elektron resurs]. URL: https://e-qanun.az/framework/25303

4. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları (mühazirə kursu). - Bakı: Nurlar, 2007. - 504 s.
5. Süleymanlı S.S. Mülki hüququn əsasları. Bakı: Hüquq Yayın Evi, 2019, 500 s.
6. Гетманова А.Д. Логика. - Москва: Новая школа, 2000. - 164 с.
7. Зинковский С.Б. Право как явление культуры: Автореф. дис... канд. юрид. наук. Москва, 2006, 24 с.
8. Павлов Б.Б. Концепт права в русской культуре: Автореф. дис... канд. юрид. наук. - Великий Новгород, 2006, 24 с.

**Алиева Г.С.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.8-12**
**УДК: 342.7**

## Конституционно-правовые основы права на культуру

**Аннотация:** В статье указывается, что каждый имеет право участвовать в культурной жизни, пользоваться учреждениями культуры и культурными ценностями. Каждый обязан с уважением относиться к историческому, культурному и духовному наследию, заботиться о нем, охранять памятники истории и культуры.

**Ключевые слова:** Азербайджан; право; статья; культура; конституция.

## Библиография

1. Конституция Азербайджанской Республики // принята 12 ноября 1995 года (с изм. и дополн. на 24 августа 2002 года, 18 марта 2009 года и 26 сентября 2016 года): [Электронный ресурс]. URL: https: //is.gd/BpivDU (на азерб. яз.).
2. Гаджиев З.Ч. Логика: учебник. - Баку: НПМ Образование, 2011. - 240 с. (на азерб. яз.).
3. Закон Азербайджанской Республики «О культуре» // принят 21 декабря 2012 года (с изм. и дополн. на 17 февраля 2023 года). [Электронный ресурс]. URL: /https://e-ganun.az/framework/25303 (на азерб. яз.).
4. Рустамов Ю.И. Основы философии (курс лекций). - Баку: Нурлар, 2007. - 504 с. (на азерб. яз.).
5. Сулейманлы С.С. Основы гражданского права. - Баку: Хугуг яйын еви, 2019. - 500 с. (на азерб. яз.).
6. Гетманова А.Д. Логика. - Москва: Новая школа, - 2000, 164 с.
7. Зиньковский С.Б. Право как проявление культуры: Автореф. дис… канд. юрид. наук. Москва, 2006, 24 с.
8. Павлов Б.Б. Понятие права в русской культуре: Автореф. дис… канд. юрид наук. Новгород, 2006, 24 с.

♦ **Алиева Гюнай Саххат кызы** – исследователь права отдела «Правовые исследования» публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовых экспертиз и законодательных инициатив» (Азербайджан). E-mail: gunay-aliyeva-2019@mail.ru